Nəfəs LGBTI Azərbaycan Alyansı

# UNİVERSAL DÖVRİ İCMAL AZƏRBAYCAN VƏKİLLİK BƏYANI

www.nafaslgbti.org

Bu bəyan Nəfəs LGBTİ Azərbaycan Alyansı tərəfindən hazırlanmışdır. Hər bir istiqamət üzrə daha ətraflı məlumat almaq üçün QR kodu izləyin.

1

**Azərbaycan LGBTİQ icmasının ümumi vəziyyəti narahatedicidir. Ənənəvi gender rolları və dəyərləri hələ də Azərbaycan cəmiyyətində və ailə strukturunda dərin köklərini saxlayır. Ölkədə nifrət cinayətləri və ya hər hansı nifrət nitqi əleyhinə hüquqi bir müdafiə mexanizmi və dövlət siyasəti mövcud deyil. Beynəlxalq Lezbiyan, Gey, Biseksual, Trans və İnterseks Assosiasiyasının "Göyqurşağı Avropa İndeksi" göstərir ki, Azərbaycan LGBTİQ-ların qorunmasına yönəlmiş qanunvericilik və siyasətdə ən pis defisitə malikdir və 2014-cü ildən bu yana siyahıda sonuncu yeri tutmaqla bütün Avropa Şurası Parlament Assambleyasına üzv ölkələri, o cümlədən Avropa İnsan Haqları Konvensiyasını ratifikasiya etmiş ölkələr arasında ən pis göstəriciyə malikdir.**

Nifrət cinayətləri və nifrət nitqi nəticəsində yaranan qorxu və təhdid mühiti LGBTİQ-lərin cəmiyyətdə tam iştirakına mane olur. Hesabat dövrü ərzində geniş yayılmış ayrı-seçkilik və zorakılıq halları LGBTİQ-lərin həyatını neqtiv mənada formalaşdırmağa, insan hüquqları kontekstində daha da ağırlaşdırmağa davam edir.

## 2 Son dövrün qısa qiymətləndirilməsi

2018-ci ildə baş tutan sonuncu UDİ qiymətləndirilməsi zamanı Argentina, Kanada, Çili, Kosta-Rika, Honduras, İslandiya, Meksika və İspaniya, Azərbaycan hökumətini LGBTİQ-lərin insan hüquqlarının müdafiəsi və təşviqi üçün zəruri hüquqi və siyasi dəyişikliklər etməyə, həm qanunda, həm də praktikada seksual oriyentasiya, gender kimliyi və özünü ifadəsi (SO-GKÖİ) əsaslı zorakılıq və ayrı-seçkiliyi sanksiyalaşdırmağa çağırış edən səkkiz tövsiyə etmişdir. Bu çağırışlar fonunda, Azərbaycan hökuməti hələ də zəruri addımlar atmayıb. **Həmin səkkiz tövsiyyəni xatırlayaq, Azərbaycanda:**

- ✖ SO-GKÖİ əsaslı ayrı-seçkilikdən müdafiə hüququnun da tanındığı, əhatəli anti-diskriminasiya qanunu hələ də qəbul edilməyib;
- ✖ LGBTİQ icmasına qarşı törədilmiş nifrət nitqi və nifrət cinayətlərin hələ də effektiv araşdırılmır;
- ✖ SO-GKÖİ motivli nifrət nitqi hələ də sanksiyalaşdırılmır, SO-GKÖİ motivi cinayət halları zamanı hələ də ağırlaşdırıcı amil olaraq qəbul edilmir;
- ✖ LGBTİQ icması, o cümlədən LGBTİQ fəalları və dəstəkçiləri polis tərəfindən təqib və həbs, o cümlədən qeyri-insanı rəftarla üzləşməyə davam edir.

Mövcud vəziyyətin təsirindən yaranmış ayrı-seçkilik və ya qısnama halları ilə üzləşmə qorxusu ümumən icmanın, xüsusən də trans icmanın ictimai həyatdan uzaqlaşmasına səbəb olur, onların həyatı, mühüm xidmətlərə əlçatımlığı çətinləşdirir, bir çox hallarda hətta mümkünsüz edir. Ümumilikdə LGBTIQ-lar və xüsusən də trans icması polis və digər dövlət qurumları, o cümlədən yerli əmək bazarında, təhsil və səhiyyə xidməti təminatçıları tərəfindən hədə-qorxu, ayrı-seçkilik, zorakılıq hallarına qarşı həssas və müdafiəsiz qrup olaraq qalmağa davam edir. Əksər hallarda ayrı-seçkiliyik, nifrət nitqi və nifrət cinayətləri daxil olmaqla bir çox insidentlər barədə zərərçəkənlər tərəfindən rəsmi şikayət edilmir. Bu qismən həm də ona görədir ki, zərərçəkənlər üz tutacaqları hüquq mühafizə orqanları əməkdaşları, əsasən də polis tərəfindən yenidən zorakılıq və ayrı-seçkiliklə üzləşmək qorxusu keçirir, onların şəxsi həyatın məxfiliyini qorunması hüququnun pozulmasından ehtiyat edirlər.

## 3 Nifrət Cinayəti

**Nəfəs-ə məlum olan elə bir fakt yoxdur ki, törədilən cinayətdə polis və ya ədliyyə orqanları aktın arxasında homofob/transfobik motivi aydınlaşdırsın və ya cəza təyin edərkən aktın motivi ağırlaşdırıcı amil kimi nəzərə alsın.**

Təcrübədə bu kimi işlər ənənəvi cinayət aktları ilə bərabər tutulur. Əksinə, hətta zorakılığın birbaşa homofobik/transfobik motivli törədildiyi və ya ən azından ondan təsirləndiyi faktı aşkar olduğu hallarda belə aktın spesifik xarakteri bilərəkdən gözardı edilir. Bu kontekstdə LGBTİQ fəalı və jurnalist Əvəz Hafizlinin dəhşətli qətli ilə sonlanan, sosial şəbəkə fenomeni Sevinc Hüseynovanın LGBTİQ icmasını hədəfə almasını, həmin paylaşımlardakı nifrət nitqinə edilən etirazlar fonunda cərəyan edən hadisələri nümunə olaraq göstərmək olar.

## 4 Nifrət Nitqi

**Cinayət Məcəlləsinin 283-cü maddəsində milli, irqi, sosial, dini nifrət və düşmənçiliyin salınmasına yönəlmiş açıq şəkildə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə etməklə törədilən hərəkətlərə görə cəza tədbirləri nəzərdə tutsada, sosial qruplardan biri olmağına baxmayaraq, LGBTİQ icması SO-GKÖİ motivli nifrət nitqi qarşısında müdafiəsiz qalmağa davam edir. Xüsusilə ictimai xadimlər və dövlət rəsmiləri tərəfindən söylənən nifrət nitqinə dair kifayət qədər sübutlar olmasına baxmayaraq, bu çıxışlar bircə dəfə də olsun sanksiyalaşdırılmayıb.**

Məsələn, Sevinc Hüseynovanın LGBTİQ-lərin öldürülməsi ilə bağlı çağırışına cavab olaraq bir qrup fəal Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) kollektiv müraciət edib və onların arasında feminist fəal Gülnarə Mehdiyeva da vardır. Bu müraciət əsasında Mehdiyeva DTX-yə dəvət edilib və ona bildirilib ki, "Qanunvericilikdə sosial qruplar anlayışına kimlərin daxil olduğu dəqiq müəyyən edilməyib. Nəticədə, nə qanunvericilikdə yazılı olaraq, nə də onun tətbiqi zamanı praktikada LGBTİQ-lər sosial qrupun bir hissəsi kimi müəyyənləşdirildiyindən, DTX heç bir tədbir görə bilməz".

**Dövlət rəsmilərinin, xüsusilə də millət vəkillərinin nifrət dolu çıxışları yeni bir şey deyil və sözdə mənəvi-mədəni-dini arqumentlərlə dəstəklənən şəxsi baxışların təzahürü kimi qəbul edilə bilər. Narahatedici məqam isə son zamanlar onların daha təhlükəli ritorikadan istifadə etmələridir. Əgər 2022-ci ilə qədər icmanı hədəf alan çıxışlar daha çox geniş kütləyə hesablanmış, populist çağırışlar idisə, son dönəmlərdə bu kimi nifrət nitqlərində LGBTİQ-lər nəinki daha da marginallaşdırılır, əksinə, onların təməl hüquq və azadlıqlarının məhdudlaşdırılmasını, bu istiqamətdə müxtəlif "həll yolları"nı təbliğ və təşviq edilir.**

Məsələn, 28 oktyabr 2022-ci ildə anti-LGBT və anti-feminist təbiəti ilə tanınan millət vəkili Tahir Kərimli yerli mediaya müsahibəsində bildirir ki, "Azərbaycanda LGBT haqqında təbliğat qadağan edilməlidir". O, həmin ərəfədə Rusiya Dövlət Dumasında "Kütləvi informasiya vasitələrində, internetdə, ədəbiyyatda və kinoda LGBTİQ-lərin təbliğatının qadağan edilməsi" ilə bağlı müzakirəyə çıxarılan qanun layihəsini şərh edərkən bildirib ki, "Mən bu barədə dəfələrlə deputat yoldaşlarımla danışmışam. Kaş, biz də buna nail ola bilək. LGBT-nin təbliği Azərbaycan üçün təhlükədir, təcili olaraq bizim də bununla bağlı qanun layihəsi hazırlamağımız lazımdır".

## 5 Ədalət mühakiməsinə və effektiv müdafiə vasitələrinə əlçatanlıq

**Ayrı-seçkilik və zorakılıqla üzləşən bir çoxları üçün polisə və ya məhkəməyə müraciət etmək üçün imkanlar azdır, LGBTİQ icmasının hüquqları pozulduğu zaman rahat şikayət edəcəkləri təhlükəsiz bir mühit yoxdur. Polisin icmaya qarşı illərdir göstərdiyi münasibət və nəticədə polisə və digər hüquq mühafizə orqanlarına qarşı (haqlı olaraq) formalaşmış inamsızlıq və qorxu hissi dərinləşməyə davam edir.**

Zorakı tərəf çox vaxt hüquq mühafizə orqanlarının əməkdaşları, o cümlədən polislər özləri olurlar və onlar tərəfindən törədilmiş zorakılıq aktları nə effektiv araşdırılır, nə də səbəbkarlar cəzalandırılır. Belə olan halda isə ümumən hüquqi müdafiənin mümkünsüzlüyü ilə yanaşı, həm də icma daxilində polis tərəfindən daim saxlanılmaq və işgəncələrə məruz qalmaq qorxusu daha da dərinləşir. Hüquq-mühafizə təşkilatları zamanla polisin şəxsin LGBTİQ kimliyini ailəsi, təhsil aldığı universitet və ya iş yerində rəhbərliyə aşkar etmə ilə şantaj etməsi, əvəzində pul verməyə, cinsi əlaqədə olmağa məcbur edilməsi; polisin şəxsin törətmədiyi cinayətləri etiraf etməyə məcbur etməsi, razı olmadıqda isə polis tərəfindən işgəncələrə məruz qalması və ya narkotik maddələrin qanunsuz satışı ilə həbs olunacağı ilə qorxudulduğu hallarını da sənədləşdirib.

**LGBTİQ icması daxilində polis tərəfindən alçaldıcı və zorakı rəftarla müşayiət olunan mütəmadi təqib və həbslərə, o cümlədən məhkəmə qərarı belə olmadan məcburi tibbi müayinəyə ən çox məruz qoyulanlar transgender, xüsusilə də trans qadınlardır. Azərbaycanda seks işçiliyi qeyri-qanunidir, bu qanunu "pozma" inzibati məsuliyyətə səbəb olur. Bu qanun polis tərəfindən tez-tez trans qadınları sıxışdırmaq və təqib etmək üçün istifadə edilir. Bundan əlavə, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu da icmanın təqib, həbs və məcburi tibbi müayinəyə məruz qalmasına legitimlik gətirmək üçün polis tərəfindən tez-tez istifadə olunur.**

# LGBTİ+ hüquq müdafiəçiləri və fəallarının sərbəst toplaşmaq azadlığı və təhlükəsizliyi

**Azərbaycan Konstitusiyası dinc toplaşmaq və söz azadlığı hüququna təminat verir. Azərbaycan həmçinin sərbəst toplaşmaq, ifadə azadlığı və şəxsi həyata hörmət hüquqlarını da əhatə edən bir sıra beynəlxalq insan hüquqları aktlarını, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya etməklə üzərinə götürdüyü öhdəliklərə riayəti təmin etmək məcburiyyəti daşıyır. Lakin müşahidələrə əsasən bu və digər hüquqların pozulması təkcə məhsul dövlət qurumlarının fəaliyyətsizliyi səbəbindən deyil, eyni zamanda elə həmin qurumların özləri tərəfindən törədilir.**

2019-cu ildən etibarən Beynəlxalq Qadınlar Günü feminist fəalların dinc şəkildə bir araya gələrək Azərbaycanda gender əsaslı zorakılığa və qadın qətllərinə etiraz etmək, hökumətdən ayrı-seçkilik olmadan hamı üçün bərabər hüquqların təmin edilməsini tələb etmək üçün 8 Mart günü bir araya gəlir və LGBTİQ icması və hüquq müdafiəçiləri də bu çağırışlara qoşularaq həmrəylik göstərir. Lakin, hər il dinc şəkildə nəzərdə tutulan 8 Marş yürüşünə polis tərəfindən müdaxilə edilir, iştirakçıların sərbəst toplaşmaq və ifadə azadlığı hüququ kobudluqla pozulur. **Məsələn:**

2020-ci ildə polis aksiya zamanı ən azı 10 nəfəri saxlayıb. Daha sonra onlar Qobustan rayonuna (Bakıdan 101 km aralıqda) aparılaraq çölə buraxılıblar. Dövlət tərəfindən maaliyələşən onlarla internet media platforması 8 Marş yürüşünü "milli və dini dəyərlərə və ailə institutuna hücum" kimi təqdim edərək, bunun "feminizm adı altında fahişəlik və LGBT hüquqlarının təbliği" olduğunu və iştirakçılar "Bakı küçələrində əxlaqsız QİÇS virusları" adlandırılıb.

2022-ci ildəki yürüş kritik insidentlər olmadan baş tutsa da, yürüş iştirakçılarının ifadə azadlığının pozulması kontekstində ciddi polis müdaxilələri olub. Məsələn, yürüşə qoşulan LGBTİQ fəalı Cavid Nəbievdən göy qurşağı rəngli maskanın "məqsədəuyğun olmadığı" üçün geyindiyi maskanı dəyişdirməsi tələb edilib. Nəbiyev deyir ki, burda nəyin məqsədəuyğun olub-olmadığını dəqiqləşdirməyə çalışsa da, polis "Özün cavabı bilirsən. Amma cavab lazımdırsa, 9-cu bölmədə verə bilərik" deyib. Daha sonra isə başqa bir vəzifəli polis əməkdaşı yaxınlaşaraq Nəbiyevin ərazidən uzaqlaşdırılması ilə bağlı digər polislərə göstəriş verib. Başqa bir misalda, LGBTİQ fəalı Əli Məlikov yürüş zamanı göy qurşağı və trans bayrağı açmağa cəhd edib və dərhal polis tərəfindən həmin bayraqlar götürülüb. Polis həmçinin "Petuxlar diktatorluğa qarşıdır" yazılmış plakatı müsadirə edərək parçalayıb.

2023-cü il May ayının 22-si Bakının Xətai Rayonunda polis tərəfindən trans qadınların şərəf və ləyaqətinə hörmətsizlik və alçaldılması fonunda baş verən qarşıdurma nəticəsində üç trans qadın həbs olunaraq Xətai Rayon 37-ci Polis İdarəsinə aparılıb. Ertəsi gün, mayın 24-də trans yoldaşlarının azadlığa buraxılmasını tələb etmək məqsədi ilə trans icması dinc şəkildə onların saxlanıldığı idarənin qarşısında toplaşıblar. İcma ilə həmrəylik nümayiş etdirmək, vəziyyəti müşahidə edib sənədləşdirmək məqsədi ilə Nəfəs LGBTİ Azərbaycan Alyansının ictimai vəkillik üzrə məsul işçisi Cavid Nəbiyev və könüllülərin cəlb olunması üzrə koordinatoru Əli Məlikov da aksiya yerinə gedib. Polis tərəfindən süni şəkildə bilərəkdən yaradılmış qarşıdurma nəticəsində onlar həbs olunublar. Təxminən 18 saat sonra Əli Məlikova xırda xuliqanlıq, Cavid Nəbiyevə isə qanunsuz olaraq narkotik vasitələrin əldə edilməsi, daşınması və göndərilməsi maddəsi ilə ittiham irəli məhkəməyə çıxarılıblar və müvafiq olaraq hər biri 70 və 300 AZN cərimə olunaraq sərbəst buraxılıblar. Buraxıldıqdan sonra onlar polis tərəfindən qarşılaşdıqları dəhşətli təcrübələr barədə bölüşüblər:

**məcburi tibbi müayinə** | **cinsi istismar** | **qeyri-insani və alçaldıcı rəftar** | **fiziki şiddət**

Mayın 31-də Avropa Şurası Parlament Assambleyasının LGBTQİ+ların hüquqları üzrə baş məruzəçisi Kristof Lakroix (Belçika, SOC) bəyanat yayaraq Azərbaycan hökumətini "LGBTİQ icmasının təqib etməyi dayandırmağı, polis tərəfindən icmaya və hüquq müdafiəçilərinə qarşı kobud rəftarla bağlı bütün iddialar üzrə tam, effektiv və müstəqil araşdırma aparmağa" çağırıb.

# TÖVSİYYƏLƏR

### Ayrı-seçkiliyə qarşı qanun (Anti-diskriminasiya qanunu): #SO-GKÖİ qorunan əsaslardan biri kimi

- Beynəlxalq insan hüquqları standartlarına uyğun olaraq, cinsi oriyentasiya, gender kimliyi və ifadəsi əsaslı ayrı-seçkiliyin də daxil olduğu ictimai və şəxsi həyatda, xüsusən məşğulluq, təhsil, səhiyyə, mənzil təminatı və mülkiyyət sahələrində birbaşa və dolayı ayrı-seçkiliyin bütün formalarını qadağan edən ayrı-seçkilik əleyhinə qanun qəbul edilməsi.

### Nifrət cinayətləri və nifrət nitqi: #cinayət məcəlləsi; #SOGIESC ağırlaşdırıcı amil kimi

- Cinsi oriyentasiya, gender kimliyi və özünü ifadəsi motivli cinayətləri nifrət cinayətinin bir növü kimi tanınması və ağırlaşdırıcı hal olaraq Cinayət Məcəlləsinə daxil edilməsi;
- Bütün nifrət cinayətlərinin, o cümlədən, seksual oriyentasiya, gender kimliyi və ifadəsi motivli cinayətlərin qarşısının alınması, effektiv araşdırılması və ədalətli cəzanın verilməsi məqsədi ilə Daxili İşlər və Prokurorluq orqanları nəzdində Nifrət Cinayətlərinin Araşdırılması İşçi Qrupu-nun yaradılması.
- LGBTİ+lərə qarşı yönəlmiş nifrət nitqi ilə effektiv mübarizənin təşkili üçün müvafiq dövlət strategiyasının hazırlaması, monitorinq və sanksiya mexanizmlərini yaradılması, olanları isə təkmilləşdirilməsi;
- LGBTİ+ləri hədəf alan nifrət nitqinin zamanında və effektiv istintaqını və adekvat şəkildə cəzalandırılmasını təmin etmək üçün zəruri hüquqi və inzibati islahatların aparılması, o cümlədən, Cinayət Məcəlləsinin 283-cü maddəsinə şəxsin seksual oriyentasiya, gender kimliyi və ifadəsinin nifrət nitqindən müdafiə olunan əsaslardan biri kimi tanınması.

### Hüquqi tanınma: #gender; #evlilik/vətəndaş birliyi

- Bədən uyğunlaşdırma əməliyyatlarını və hormon əvəzləyici terapiyanı məcburi şərt saymadan və şəxsin öz bəyanına əsaslanan gender kimliyinin hüquqi tanınmasını təmin edəcək sürətli, şəffaf və əlçatan mexanizm qurulması məqsədi ilə müvafiq hüquqi və inzibati islahatlar aparmaq, o cümlədən Gender Kimliyinin Hüquqi Tanınması Haqqında Qanunvericiliyin qəbul edilməsi;
- Zəruri konstitusiya və inzibati islahatlar aparmaqla homoseksual cütlüklərin hüquqi tanınması;

### Məhkəmə və polis aparatı: #potensialın gücləndirilməsi; Nifrət nitqi və nifrət cinayətləri ilə bağlı statistikanın toplanması

- Cinsi oriyentasiya, gender kimliyi və ifadəsi motivli törədilmiş nifrət cinayətləri, nifrət çağırışları və ayrı-seçkilik halları ilə vaxtında və effektiv mübarizənin təşkili üçün hüquq mühafizə və məhkəmə orqanları əməkdaşlarının bilik və bacarıqlarını, o cümlədən həssaslıqlarını artırmaq məqsədi ilə müvafiq təhsil proqramları və tədris planlarının hazırlanması və həyata keçirilməsi;
- Cinayətlərin statistik məcmuəsində seksual oriyentasiya, gender kimliyi və özünüifadəsi əsaslı hüquq pozuntu aktlarının cinayətin bir növü kimi tanıyaraq Polis, Ədliyyə və Prokurorluq orqanları tərəfindən LGBTİ+lərə qarşı törədilmiş zorakılıq və ayrı-seçkilik aktları üzrə statistikanın toplanması;

### Səhiyyə: #Normallaşdırma terapiyası; #interseks uşaqlara tibbi müdaxilə; #İİV/QİÇS

- Dövlət və özəl tibb müəssisələrində LGBTİ+ benefisiarlar üzərində normallaşdırma prosedurlarının qadağan etmək, bu kimi zərərli təcrübələri aradan qaldırmaq üçün müasir elmi-tibbi nailiyyətlərə və beynəlxalq hüquqa əsaslanan səhiyyə protokollarının hazırlanması;
- - Uşağın üstün maraqlarını nəzərə alaraq, interseks körpələrə və uşaqlara müvafiq razılıq verə biləcək yaşa çatana qədər cərrahi və ya digər tibbi müdaxilələrin qadağan edilməsi;

### LGBTİQ hüquq müdafiəçiləri: #pis rəftar və təqib; #sərbəst toplaşmaq azadlığı; #ifadə azadlığı; #şəxsi həyata hörmət

- Bütün vətəndaşların, o cümlədən LGBTİ+lərin və onların hüquqlarını müdafiə edənlərin ifadə, birləşmək və dinc toplaşmaq hüquqlarından effektiv istifadəsinin təmin edilməsi, bu azadlıqların məhdudlaşdırılması zamanı ictimai sağlamlıq, ictimai əxlaq və ictimai asayiş kimi anlayışlardan sui-istifadənin dayandırılması;
- Bütün hüquq müdafiəçilərinin, o cümlədən LGBTİ+ müdafiəçilərinin və qadın hüquq müdafiəçilərinin təhdid və hücumlardan, o cümlədən kiber hücumlardan effektiv müdafiəsini, bu hüquqların pozulmasına yönəlmiş halların operativ, hərtərəfli və qərəzsiz araşdırılmasının təmin edilməsi;